## Azərbaycan Respublikası və Kanada arasında münasibətlər

**Diplomatik əlaqələrə dair qısa məlumat:**

Azərbaycan Respublikası və Kanada arasında diplomatik əlaqələr 10 avqust 1992-ci il tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Kanadadakı Səfirliyi 2004-cü ilin sentyabr ayında açılmışdır. Kanadanın Türkiyə Respublikasındakı səfirliyi həmçinin Azərbaycanda akkreditə olunmuşdur.

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Kanada Parlamentində Kanada-Azərbaycan parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir.

**25-26 may 2010-cu ildə** Azərbaycan-Kanada Parlamentlərarası Dostluq Qrupunun sədri S.Rüstəmxanlı Kanadada səfərdə olmuşdur.

**14-16 may 2012-ci ildə** Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Kanadada səfərdə olmuşdur.

**2-7 aprel 2013-cü ildə** Kanada-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Barri Devolinin (*Barry Devolin)* başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

**18-20 may 2015-ci ildə** Kanada-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Barri Devolin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olmuşdur.

**Humanitar sahədə əməkdaşlıq:**

**2006-cı ildən etibarən** hər il Niaqara Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Mədəniyyət və İncəsənət günləri keçirilir.

**19 aprel 2013-cü il tarixində** Kanada Milli Qalereyasında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konsert təşkil olunmuşdur.

**12-14 sentyabr 2014-cü il tarixlərində** Kanadanın Monreal şəhərində "Azərbaycan film festivalı" keçirilmişdir.

**24-25 oktyabr 2015-ci il tarixlərində** Kanadanın Toronto şəhərində Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadənin *"Oyan!"* adlı konserti təşkil olunmuşdur.

**<u>Müqavilə-hüquq bazası:</u>**

Azərbaycan Respublikası ilə Kanada arasında 4 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 22.02.2016***